# TÜRK DÖVLƏTLƏRİNİN BEYNƏLXALQ TƏŞKİLATLAR ÇƏRÇİVƏSİNDƏ REGİONAL İNTEQRASİYA PERSPEKTİVLƏRİ

***Ceyhun MAHMUDOV***
*(Qafqaz Universiteti)*

Sovet İttifaqı dağıladıqdan sonra müstəqilliklərini qazanmış türk dövlətlərinin regional inteqrasiya məsələləri aktual xarakter almışdır. Osmanlı dövləti dağıldıqdan sonra öz müstəqilliyini qoruyub saxlaya bilən. uzun müddət dünya xəritəsində yeganə türk dövləti olaraq qalan Türkiyə Cümhuriyyəti regional inteqrasiyanın təşəbbüskarı kimi çıxış etməsi gözlənilən bir addım idi. Yeni müstəqil olmuş Türk dövlətləri də istər iqtisadi, istərsə də siyasi baxımdan qərb institutlarına uğurla inteqrasiya etmiş Türkiyyənin təcrübəsindən istifadə etməkdə maraqlı idilər. Bu ideyaların relalşması üçün bir çox tədbirlər həyata keçirilsə də arzu edilən bütövləşməyə nail olunmamışdır.

Bunula belə, türk dövlətləri arasında bütün sahələri əhatə edən əməkdaşlıq ideyaları hələ də öz aktuallığını saxlamaqdadır. Son dövrlərdə Azərbaycan və Türkiyə arasında həyata keçirilən layihələr nəin ki, bu iki dövlətin maraqlarına xidmət etməsini nəzərdə tutur, eyni zamanda bütün türk dünyasının problemlərini həll etməyə istiqamətlənmişdir. Bu sahədə konkret addımlarda atılmaqdadır. 2007 ci ildə Bakıda keçirilən türk diaspora təşkilatlarının qurultayını misal göstərmək olar. Azərbaycan respublikasının prezidenti bir millətin iki diasporası yox, bir diasporası olmasının və onların ümumi problemləri birgə həll etməli olduğunu vurğulamışdır. Bundan başqa Türk Dövlətlərinin Parlament Assambleyası adlı siyasi təşkilat, "TRT Avaz" adlı ortaq televiziya kanalı açılmışdır[1]. Bu layihələrin hamısı türk dövlətləri arasında bütün sahələri əhatə edən birliyin formalaşmasına hesablanmışdır.

Görülən bu tədbirlərə baxmayaraq, hələ də türk dövlətləri arasında hər hansısa birlikdən danışmaq tezdir. Bunun səbəblərini müəyyənləşdirmək üçün birliyin qurulmasına mane olan amilləri təhlil etmək lazımdır. İlk öncə "regional inteqrasiya anlayışı" müəyyənləşdirlməli, uğurlu və uğursuz regional təşkilatların fəalliyyəti gözdən keçirilməli və arzu edilən, Türk Birliyi konkter amillər nəzərə alınaraq təhlil edilməlidir.

---
[1] http://olaylar.az/index.php?newsid=1238414399

## 1.Regional Təşkilatlarin Xüsusiyyətləri

Regional inteqrasiya rəsmi və ya qeyri-rəsmi səviyyədə hökumət və yaxud qeyri-hökumət təşkilatları arasında qarşılıqlı fayda əldə etmək üçün üç və daha artıq dövlətin iştirakı ilə qurulan daimi əməkdaşlıqdır[2].

Regional inteqrasiya proseslərini təhlil etmədən əvvəl "region" anlayışını müəyyənləşdirməyə ehtiyac vardır. Coğrafi baxımdan "region" Yer kürəsində hər hansı bir ərazini ifadə etməklə kifayətlənsə də, siyasi baxımdan regionun müəyyənləşdirilməsi mürəkkəb xarakter alır.

İstənilən bir coğrafi ərazinin siyasi baxımdan "region" olaraq adlandırılması üçün bəzi ölçülər mövcuddur. İlk növbədə qeyd etmək lazımdır ki, regionun qurulmasına daxili və xarici faktorlar təsir göstərir. Daxili faktorlara ümumi din, tarix, mədəniyyət və adət-ənənə, xarici faktorlara isə təhlükəsizlik və iqtisadi əməkdaşlıq aid edilir. İstənilən bir regiona daxil olan dövlətlər yuxarıda qeyd olunan amillərdən təsirlənərək beynəlxalq təşkilatlar vasitəsilə bir-biri ilə inteqrasiya etməyə cəhd edirlər. Məsələn, İkinci Dünya müharibəsindən sonra kommunizm təhlükəsi Qərbi Avropa dövlətləri tərəfindən NATO adlı hərbi-regional təşkilatın qurulmasını labüd etdi[3]. Yəni müharibədən sonra dağılmış Avropada sosial və iqtisadi vəziyyətin çətinləşməsi kommunizm ideyalarının yayılmasına imkan yaradırdı və bu proseslərin təkbaşına qarşısını almağın çətinliyini anlayan Qərbi Avropa dövlətləri çıxış yolunu qarşılıqlı əməkdaşlıqda tapdılar. Tarix də sübut etdi ki, onlar yanılmadılar və bu gün qərb dəyərlərinə təhlükə yaradan "şərq bloku" mövcud deyil, Avropa dövlətləri isə inteqrasiya proseslərini daha yüksək səviyyədə inkişaf etdirirlər. Bundan başqa Ərəb dövlətləri həm yeni qazanmış olduqları müstəqilliklərini qoruya bilmək, həm də ümumi düşmən olan İsrailə qarşı birlikdə mübarizə aparmaq üçün Ərəb Dövlətləri Liqasını qurdular. Doğrudur, ərəb dövlətləri arasında mövcud olan inteqrasiya Avropadakı qədər müvəffəq olmasa da, regional inteqrasiya yolunda atılan ilk addımlardan sayıla bilər.

Regionun müəyyənləşdirilməsində qarşıya çıxan çətinliklərdən biri də onun sərhədlərinin müəyyənləşdirilməsidir. Regionun sərhədləri hansı meyarlara görə müəyyənləşdirlməlidir? Bu sərhədlər dəyişilməzdirmi? Bu və ya digər suallar mövzu ətrafında müzakirə mühiti formalaşdırır. Məsələn, Avropa İttifaqının sərhədləri altı dövlətin iştirakı ilə qurulsa da, bugün onun sərhədləri Türkiyəyə qədər genişlənmişdir. Üzvlərinin əksəriyyəti Yaxın Şərq regionunda yerləşməsinə baxmayaraq Ərəb Liqası Təşkilatına yalnız etnik ərəblərdən təşkil olunan dövlətlər üzv ola bilər. Baxmayaraq ki, Türkiyə və İran Yaxın Şərqin ən güclü dövlətlərindəndirlər onlar bu təşkilata üzv ola bilməzlər.

---

[2] Margaret P. Karns , International Organization The Politics and Processes of Global Governance, Lynne rıenner Publishers / LONDON – 2004, p 603

[3] NATO, Handbook, Public Diplomacy Division. Brussel, 2006, p 403

Beynəlxalq münasibətlər sistemində bütün regionları əhatə edən müxtəlif məqsədli regional beynəlxalq təşkilatlar qurulmuşdur. Bunlardan NATO, ATƏT, Avropa İttifaqı, Amerika Dövlətləri Birliyi, Cənub-şərqi Asiya Xalqlarının Asossasiyası, NAFTA və başqalarını göstərmək olar.

Regional təşkilatlar da universal təşkilatlar kimi həm siyasi, həm iqtisadi, həm də texniki məqsədlər üçün yaradılır. Demokratiyanin inkişaf etdirilməsi, sülh və təhlükəsizliyin qorunması siyasi, region dövlətləri arasında iqtisadi münasibətlərin inkişaf etdirilməsi, müsbət maliyyə mühitinin yaradılması, xidmət və kapital axınının sərbəstləşdirilməsi, gömrük münasibətlərinin sadələşdirilməsi isə iqtisadi məqsədlərə xidmət edir.

Regional təşkilatların bir çoxunun daimi fəaliyyət göstərən institutları, mənzil qərargahları, məhkəmə sistemləri, səsvermə qaydaları mövcuddur. Beynəlxalq münasibətlər sistemində kəmiyyətcə kifayət qədər regional təşkilat mövcud olsa da, onların hamısı effektiv fəaliyyət göstərmir və hətta bəziləri öz fəaliyyətlərini dayandıraraq artıq tarixə çevrilmişlər. Qeyd etmək lazımdır ki, təşkilatların fəaliyyətlərinin müvəffəqiyyətini onların uzun ömürlülükləri ilə ölçmək düzgün deyil. İstənilən bir təşkilatın müvəffəqiyyətini onun fəaliyyəti ilə müəyyənləşdirmək lazımdır. Xüsusilə, bu təşkilatın fəaliyyəti dövründə region dövlətləri arasında iqtisadi münasibətlərin nə dərəcədə inkişaf etməsi, fəaliyyətdə olduğu dövr ərzində mövcud bir münaqişəni həll edib etməməsi, təşkilatın yeni formalaşan mühitə uyğunlaşma qabiliyyəti nəzərə alınmalıdır. Mövcud suallardan çıxış edərək bir neçə regional təşkilatın müqayisəli təhlilini vermək olar. Brus Rasset regional təşkilatların effektliliyini ölçmək üçün beş əsas faktor önə sürür: sosial-mədəni homogenlik, bənzər davranış normaları, qarşılıqlı siyasi asılılıq, qarşılıqlı iqtisadi asılılıq və coğrafi yaxınlıq.

**Clive Archer, International Organization, Routledge Publishing / U. S. A – 2001, p 204**

| Təşkilatlar | A | B | C | D | E | Cəmi |
|---|---|---|---|---|---|---|
| Beneluks | 3 | 3 | 3 | 3 | 3 | 15 |
| Avropa İttifaqı | 2 | 2 | 3 | 3 | 2 | 12 |
| Ərəb Dövlətləri Liqası | 2 | 2 | 1 | 1 | 2 | 8 |
| BMT | 0 | 0 | 0 | 1 | 0 | 1 |

<u>Rasssetin amilləri</u> <u>Qiymətləndirmə</u>

A. Sosial-mədəni homogenlik 0 heç bir homogenlik yoxdur

B. Davranış normaları 1 zəif homogenlik

C. Qarşılıqlı siyasi asılılıq 2 orta homogenlik

D. Qarşılıqlı iqtisadi asılılıq 3 yüksək homogenlik

E. Coğrafi cəhətdən yaxınlıq <u>Cəmi</u>

15 ən yüksək "regional" identiklik

0 ən zəif "regional" identiklik

Cədvələ nəzər salsaq görərik ki, ən yüksək regional identikliyə Belçika, Niderland və Luksemburqun üzv olduğu Benluks təşkilatı sahibdir. Hətta Avropa İttifaqıda regional inteqrasiya baxımından Beneluks təçkilatından geri qalır. Ən zəif göstəriciyə dünyanın ən böyük "universal" təşkilatı olan BMT sahibdir. BMT nin ən zəif göstəriciyə sahib olması heç də təəccüblü deyil. Çünkü, BMT regional əsaslar üzərində yox, universal amillərə üzərində qurulmuşdur. Ərəb Dövlətləri Liqası da siyasi cəhətdə region olmaq yolunda çoxda uzun bir yol qətt etməmişdir. Etnik əsaslar üzərində qurulan bu təşkilat ərəb dövlətlərinin öz müstəqilliklərini yenicə qazandıqları dövrdə yaradılmışdır. Onların əsas məqsədlərindən biri böyük güclərə qarşı öz müstəqilliklərini birgə qorumaq idi.Təşkilatın əsas orqanı üzv dövlətlərin xarici işlər nazirlərindən təşkil olunan və ildə iki dəfə çağrılan şuradır. Bundan başqa periodik olaraq Ərəb dövlətlərinin başçılarının iştirakı ilə keçirilən sammit də mövcuddur. Ərəb Liqasının Baş Katibliyi və kommunikasiya,siyasət və mədəniyyət sahələri ilə məşğul olan dövri kommitələri də mövcuddur. Bu təşkilata yalnız ərəb dövlətləri üzv ola bilərlər. Cədvəldən də göründüyü kimi nə iqdisadi baxşmdan nə də siyasi cəhətdən arzu edilən əməkdaşlıq həyata keçirilməyib. və təhlükəsizlik sahəsində əməkdaşlıq baxımından müvəffəq olmasalar da, iqtisadi, sosial və mədəni sahələrdə müəyyən uğurlara nail olunmuşdur. İqtisadi baxımdan müvəffəqiyyət regional inteqrasiya üçün kifayət deyil. Siyasi və iqtisadi sahələrdə əməkdaşlığa nail olunmadan tam regional inteqrasiyaya nail olmaq olmaz.

## 2. **Türk Dövlətləri Arasında Regional İnteqrasiya Perspektivləri**

Təqdim edilən məqalənin "Giriş" hissəsində də qeyd edildiyi kimi Türk dövlətləri arasında inteqrasiya imkanları XX əsrin əvvəllərindən aktual xarakter almış və bir müddət sonra Türkiyə Cümhuriyyətindən başqa istər Qafqazda, istərsə də Orta Asiyada olan türk dövlətləri Sovet Rusiyası tərəfindən işğal edildikdən sonra bu fikirlər öz aktuallığını itirsə də, ən optimist türk milliyətçiləri bu ideyanın nə vaxtsa reallaşa biləcəyinə ümidlərini itirmədilər. Heç də təəcüblü deyil ki, Sovet İttifaqı dağıldıqdan sonra Türk dövlətləri arasında inteqrasiya imkanları yenidən öz aktuallığını qazandı.

Regional inteqrasiya proseslərini təhlil edərkən qeyd etdik ki, bu proseslərin inkişaf etməsi üçün çox vacib amillərin mövcud olması şərtdir. Bu amillərə tarixi-mədəni bağların olması, sosial-iqtisadi əməkdaşlığa duyulan ehtiyacın olması və ya konkret olaraq hər hansı bir spesefik faktorun mövcudluğunu aid etmək olar.

Tarixi mədəni baxımdan istər Anadoluda, istər Azərbaycanda, istərsə də Orta Asiya da yaşayan türklər arasında ortaq cəhətlər mövcud olsa da, tam homogenliyin mövcud olduğunu demək olmaz. Bu fərqlərlər həm bu xalqların dilində, həm də davranış normalarında özünü göstərir. Bunula belə yeni

müstəqilliklərini qazanmış olan türk dövlətləri inteqrasiya fikirlərinə müsbət yanaşaraq əməkdaşlıq etməyə hazır olduqlarını bildirdilər. Regional inteqrasiyanın həyata keçməsi üçün lider şəxslərə və ya dövlətə ehtiyac var idi. Türk dövlətlərinin timsalında lider dövlət heç şübhəsiz ki,Türkiyə Cümhuriyyəti idi. Türkiyə Cümhuriyyəti çoxillik müstəqillik tarixinə sahib olmaqla yanaşı, yeni müstəqilliklərini qazanmış Türk dövlətləri üçün yeni yaranmış dünya sisteminə inteqrasiya etməkdə yaxından kömək edə bilərdi. Türkiyə ilk dövrlərdə öz potensialını maksimum istifadə etməklə bu ölkələrdə özəl sektorun yaradılmasına yaxından köməklik edərək kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üçün investisiya qoymağa başladı. Bundan başqa,mədəniyyət və təhsil sahəsində də Türkiyəni təmsil edən müəyyən quruluşlar vasitəsilə bəzi proyektlər reallaşdırıldı.

Türk dövlətlərini əhatə edən beynəlxalq təşkilatların qurulması sahəsində də bəzi addımlar atıldı. Bu təşkilatlar arasında həm hökumətlər arası həmdə beynəlxalq qeyri hökumət təşkilatları qurulda. Türk Dilində Danışan Dövlətlərin Başçılarının Sammiti, Türksoy, Türk Dövlətlərinin Parlament Assambleyası[4], Ortaq türk televiziyası “TRT Avaz”,[5] Türk Dövlətləri və İcmalarının Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayı, və başqalarını misal göstərmək olar.

Göründüyü kimi türk dövlətləri arasında əməkdaşlığın formalşdırılması üçün konktret təşkilatlar qurulsada, nəticədə hər hansı bir inteqrasiyadan danışmaq olmaz. Nə üçün gözlənildiyi kimi türk dövlətləri arasında arzu edilən bütövləşmə baş vermədi?

İlk növbədə qeyd etmək lazımdır ki, regional inteqrasiya yalnız etnik əsaslarda qurula bilməz. Hətta, beynəlxalq təşkilatlar nəzəriyyəsi mövqeyindən baxsaq görərik ki, funksionalistlər regional inteqrasiyanın yalnız sosial-iqtisadi əsasları olduğu zaman müvəffəq ola biləcəyini iddia edirlər[6]. Etnik və tarixi-mədəni amillər stimullaşdırıcı vasitə kimi əhəmiyyətli olsalar da, həlledici faktorlar deyil. Bunula belə, qeyd etmək lazımdır ki, türk xalqları arasında belə tam etnik homogenlik mövcud deyil. Türkçülüyün və Turançılığın əsas ideoloqlarından olan Ziya Göyalp da hələ əsrin əvvəllərində Orta Asiyada yaşayan türk xalqlarının zamanla Anadolu türklərindən uzaqlaşaraq özlərinə məxsus dil və mədəniyyət formalaşdıracağını təxmin edirdi. Onun fikrinə görə dil və mədəniyyət baxımından birləşməsi asan olan türklər, xüsusilə, oğuz türkləri, türkmənlərdir. Göründüyü kimi, Ziya Göyalp da XX əsrin əvvələrində baş verən proseslər nəticəsində türk xalqlarının bir-birindən ayrılaraq özlərinə

---

[4] http://www.voanews.com/azerbaijani/archive/2008-11/2008-11-21-voa12.cfm?moddate=2008-11-21

[5] http://olaylar.az/index.php?newsid=1238414399

[6] Margaret P. Karns (35)

məxsus dil və mədəniyyət yaradacaqlarını görür və bu prosesin türklər arasında birlik fikirlərinin reallaşmasına mane olacağını bildirirdi[7].

İqtisadi baxımdan türk dövlətləri arasında ikili münasibətlər çərçivəsində bir çox iri layihələr həyata keçirilmişdir. Bu layihələrdən Azərbaycan neftinin və qazının dünya bazarlarına çıxarılmasını nəzərdə tutan BTC və BTƏ kəmərləri qurulmuş, qərb və şərq dəhlizini birləşdirəcək Bakı-Tbilisi-Qars dəmiryolu layihəsi isə həyata keçirilməkdədir. Bundan başqa karbohidrogen ehtiyatlarının zənginliyinə görə Qazaxstan və Türkmənistanın da boru xətləri layihələrinə qoşulmaq niyyətlərinin olduğu bilinir[8]. Bu layihələr reallaşarsa türk dövlətlərinin bəzilərini əhatə edən bir şəbəkə qurula bilər. Qeyd etmək lazımdır ki, ən uğurlu regional inteqrasiya layihələrindən olan Avropa İttifaqı Avropa Kömür Birliyi və Avroatom kimi iqtisadi təşkilatların uğurlu nəticəsi kimi yaranmışdır. Avropa İttifaqının bu layihələri təşkilatın qurulmasında iştirak edən altı dövlətin hamısını əhatə edirdi. Amma, türk dövlətlərində Azərbaycan, Türkiyə, Türkmənistan və Qazaxstanın təşkil edəcəyi enerji şəbəkəsində digər türk dövlətləri- Qırğızıstan və Özbəkistan yer almayacaq. Bundan başqa bu layihələrin mərkəzində olan Gürcüstanın mövqeyi harada olacaq? Göründüyü kimi, mövcud iqtisadi layihələr bütöv olaraq bütün türk dövlətlərini əhatə etmir .Belə olduqda bütün türk dövlətlərini əhatə edən və başlıca olaraq etnik köklərə əsaslanan iqtisadi inteqrasiyadan danışmaq olmaz.

İstər ikitərəfli, istərsə də çoxtərəfli münasibətlərin zirvəsi siyasi və təhlükəsizlik sahəsində əməkdaşlığın inkişaf etdirilməsi və ortaq layihələrin həyata keçirilməsidir. Türk dövlətləri arasındada inteqrasiyanın ən son mərhələsi kimi siyasi birliyin qurulması nəzərdə tutulur. Türk dövlətləri arasında siyasi birliyin tarixi, ideoloji bazasını "turançılıq" təşkil edir. Ziya Göyalp türklər arasında siyasi birlik və turancılıq haqqında danışarkən, siyasi birliyin formalşması üçün hələ zamanın yetişmədiyini qeyd edir, ancaq mədəni cəhətdən birləşməyin mümkün olduğuna inanırdı.Turançılıq ideyasını isə müəllif Leninin kommunizminə bənzədir və bunun nə zaman gerçəkləşdiriləcəyini və ya ümumiyyətlə, gerçəkləşməyəcəyini dəqiq bilməsə də, türkçülüyün yayılmasında böyük rolu olduğuna inanırdı[9]. Müasir dövrdə türk dövlətlərinin xarici siyasətlərinin priorotetlərini təhlil etdərkən bu istiqamətlərin tamamən milli maraqlardan formalaşdığını və hətta bir çox hallarda bir-birlərinə zidd istiqamətdə olduğunu görmək olar. Azərbaycan əsasən öz inkişafını Avro-Atlantik məkana inteqrasiyada görürsə də, Orta Asiyanın türk dövlətləri isə hələ də Rusiya ilə yaxın siyasi münasibətdədir. Təhlükəsizlik baxımından türk dövlətlərindən bir-birinə zidd mövqeydə dayananlar mövcuddur. Məsələn, Türkiyə NATO təhlükəsizlik sisteminin tərkib hissəsi olduğu halda, Orta Asiyanın türk dövlətləri Rusiyanın liderlik etdiyi Kollektiv Təhlükəsizlik

---

[7] Ziya Göyalp, Türkçülüyün Əsasları, Maarif, Bakı, 1991, s 176
[8] Meftun Metin, Politik ve Bölgesel Güc, Hazar,İQ kültür sanat yayıncılık, İstanbul, 2004, s 277
[9] Göyalp (38)

müqaviləsinin üzvləridirlər[10]. Qeyd etmək lazımdır ki, Azərbaycanın torpaqlarının 20%-ni işğal edən və hazırda da onunla müharibə vəziyyətində olan Ermənistan da kollektiv təhlükəsizlik müqaviləsinin üzvüdür. Bu müqavilənin şərtlərindən irəli gələrək üzv dövlətlərin hər hansısa birinin təhlükəsizliyi təhdid edilərsə üzv dövlətlər birbaşa və ya dolayısı ilə bir-birlərinə kömək etməlidirlər. Bir anlıq düşünmək olar ki, Azərbaycan qanunu haqlarını bərpa etmək istəsə öz qarşısında Ermənistanla yanaşı bir məkanda inteqrasiya etmək arzusunda olduğu dövlətlərlə qarşılacaq. Bu vəziyyətdə hər hansı bir siyasi birlikdən danışmağın hətta absurd olduğu söylənilə bilər. Bundan başqa bəzi türk dövlətləri arasında istər siyasi, istər ərazi bütövlüyü, istərsə də təbii ehtiyatlarının bölüşdürülməsi sahəsində konkret narazılıqlar mövcuddur.

Ümumiyyətlə, türk dövlətlərinin arzu edilən, bütün sahələri əhatə edən birliyini Brus Rasset müəyyənləşdirmiş olduğu ölçülərlə təhlil etsək aşağıdakı nəticələrə gələ bilərik.

| Təşkilat | A | B | C | D | E | Cəmi |
|---|---|---|---|---|---|---|
| Türk Dövlətləri Birliyi | 1 | 1 | 1 | 2 | 1 | 6 |

Sosiai-mədəni cəhətdən, dil, din, ortaq adət-ənənələr baxımından yaxın olan türk xalqları tarixi proseslər nəticəsində bir-birindən uzaqlaşmış, başqa sosial-mədəni dəyərlərlə təmasa keçərək bəzi məsələlərdə bir-birindən ayrılmışlar.Davranış normaları da "l"ilə qiymətləndirilə bilər. Çünki, uzun müddət Türkiyə Cümhuriyyətindən başqa digər türk dövlətləri SSRİ-nin tərkibinə qatılmış, Sovet mədəniyyəti adlı əxlaq normalarından tərbiyələnmiş, öz tarixi-mədəni davranış normalarından müəyyən mənada uzaqlaşmışlar. Belə olduqda da davranış normaları arasında müəyyənləşdirlən yaxınlıq "1" ilə qiymətləndirilmişdir. Siyasi cəhətdən bu dövlətlər arasında qarşılıqlı asılılıq yoxdur. Ümumiyyətlə, bu dövlətlərin siyasi quruluşlarında da fərqlər mövcuddur. Baxmayaraq ki, bütün türk dövlətləri dünyəvi respublika quruluşuna malikdir, amma demokratiyanın səviyyəsi bu ölkələrdə müxtəlifdir. Bundan başqa, qeyd etmək lazımdır ki, liderlik roluna iddialı Türkiyə Cümhuriyyəti faktiki olaraq Orta Asiya türk dövlətlərində güclü bir nüfuzua sahib deyil, hətta bəzi dövlətlərlə müəyyən siyasi problemləri mövcuddur[11]. Mövcud şərtlər nəzərə alınaraq siyasi asılılıq kateqoriyası da "1" ilə qiymətləndirilə bilər. İqtisadi baxımdan asılılığı təhlil edərkən qeyd etmək lazımdır ki, ayrı-ayrı dövlətlər arasında ikitərəfli iqtisadi münasibətlər mövcud olsa da, bu münasibətlər bütün region dövlətlərini əhatə etmədiyi üçün bu kateqoriya da yalnız "1" ilə qiymətləndirilə bilər. Coğrafi cəhətdən iddia edilən regionu bütöv olaraq görmək çox çətindir. Orta Asiya türk dövlətləri arasında

---

[10] Е.М.Кузмина, Геополитика Центральной Азии, Наука, Москва, 2007 с 152
[11] Кузмина (108)

coğrafi yaxınlıq mövcud olsa da, Türkiyə və Azərbaycanla münasibətdə birbaşa sərhədlər mövcud deyil. Amma Xəzər dənizi vasitəsilə Azərbaycanla Qazaxstan və Türkmənistan arasında su nəqliyyatı mövcuddur və gələcəkdə nəqliyyat sahəsində nəzərdə tutulan infrastruktur layihələr həyata keçirilərsə türk dövlətləri bir-birinə daha da yaxınlaşacaqlar. Bütün bu amillər coğrafi yaxınlıq kateqoriyasını “2” ilə qiymətləndirməyə imkan verir. Ümumi nəticə isə “6”. Müqayisə üçün qeyd etmək olar ki, ehtimal edilən Türk Dövlətləri Birliyi regional inteqrasiya baxımından ən uğursuz təşkilatlardan olan Ərəb Dövlətləri Liqasına da uduzmaqdadır. Ümumiyyətlə, mədəni və etnik baxımdan stimullaşdırılan inteqrasiya prosesləri adətən uğursuzluqla nəticələnir. Ən müvəffəq regional təşkilatlar iqtisadi və sosial baxımdan bütövləşməyə can atan dövlətlər tərəfindən reallaşdırılır.

## Nəticə

Nəticədə qeyd etmək lazımdır ki, mövcud vəziyyətdə türk dövlətləri arasında müvəffəq hesab edilə biləcək regional identiklik mövcud deyildir. Amma bu sahədə bir çox addımlar atılmaqdadır. Bu onu göstərir ki, türk dövlətləri üçün siyasi birlik ideyası öz aktuallığını itirməmişdir. Xüsusilə 2008 ci ilin noyabr ayında təsis edilən Türk Dövlətlərinin Parlament Assambleyasına türk dövlətləri birliyinə inan şəxslər tərəfindən böyük ümidlər bəslənilir. Hesab edilir ki, məhz bu assambleya vasitəsi ilə türk xalqları öz problemlərini həll edəcək və nəticə də arzu edilən siyasi birliyə nail olunacaqdır. Amma bu qrumun təsisçilərində konkret olaraq bu təşkilatın qruluşu, funksiyaları və üzvlüklə alqədar məsələlərdə yetkin bir fikrə sahib deyillər. Bundan başqa bu təşkilatda bütün türk dövlətlərinin iştirak etməməsidə bu qurumun gələcək müvəffəqiyyətini şübhə altına alır..

Qeyd edildiyi kimi iqtisadi sahədə türk dövlətlərinin üzv olduğu, Qafqaz və Orta Asiya regionunu əhatə edən iqtisadi layihələr mövcuddur və bu münasibətlər türk dövlətləri arasında möhkəm bağların qurulmasına səbəb ola bilər. Amma unudulmamalıdır ki, iqtisadiyyat etnik və mədəni əsaslar üzərində qurmaq olmaz, iqtisadiyyat maraqlar üzərində qurulmalıdır. Qafqaz və Orta Asiya regionu, region dövlətlərinin maraqlarına uyğun olan bir çox layihələr həyata keçirilə bilər. Unudulmamalidir ki, bu regionda türk xalqlarında başqa digər xalqlarda yaşamaqdadır ümumi maraqları təmin etmək üçün onlarında bu layihələrə qatılmaları vacibdir. Belə olduqda da ayrıca bir türk dövlətlərinin yox böyük bir regionun inteqrasiyasından danışmaq olar.

Türk dövlətləri arasında mədəniyyət sahəsində əməkdaşlığın imkanları genişdir və bu sahədə münasibətlərin inkişaf etdirilməsinə böyük ehtiyac vardır. Türksoy təşkilatının imkanları dahada genişləndirilərək onu UNESCO kimi daha funksional təşkilata çevirmək lazımdır. Bundan başqa “TRT Avaz” televiziya kanalının açılması mədəniyyət sahəsində münasibətlərin daha da

inkişaf etməsinə səbəb olacaq. Bu televiziya kanalında hər bir türk xalqlarının ləhçələrində verlişlər hazırlanaraq, digər bütün türk xalqlarına nümayiş etdiriləcəkdir. Belə olduqda bərabərlik yaranacaq hər hansısa bir türk xalqının digərləri üzərində mədəni dominantlığına yol verilməyəcək. Belə şəraitdə hər bir türk xalqı istər öz mədəniyyətinin təbliğindən, istərsə də digər türk xalqlarının mədəniyyətini öyrənməkdən çəkinməyəcək.

Türk dövlətləri arasında istər mədəniyyət, istərsə də iqtisadi sahəsində davam edən əməkdaşlıq mövcud olsada siyasi baxımdan Türk dövlətləri arasında birliyin qurulması hələ ki, imkansız görünür

## ƏDƏBİYYAT


1. CLIVE ARCHER, INTERNATIONAL ORGANIZATION, Routledge Publishing / U. S. A – 2001, p 204
2. Margaret P. Karns, International Organization The Politics and Processes of Global Governance, Lynne rıenner Publishers / LONDON – 2004, p 603
3. Meftun Metin, Politik ve Bölgesel Güc, Hazar,İQ kültür sanat yayıncılık, İstanbul, 2004, s 277
4. NATO, Handbook, Public Diplomacy Division. Brussel, 2006, p 403
5. Shamima Ahmed, David M.Potter, NGOS in International Politics, Kumarian Press / U. S. A – 2006, p 285
6. STEVEN P. McGIFFEN, THE EUROPEAN UNION A Critical Guide, Pluto Press / LONDON – 2005, p 222
7. SVEN BERNHARD GAREIS , JOHANNES VARWICK, THE UNITED NATIONS AN INTRODUCTION, Palgrave Macmillan / NEW york – 2005, p 284
8. Thomas D. Zweifel, International Organizations & Democracy, Lynnerıenner Publishers / London – 2006, p 225
9. Thomas G. WEISS, The United Nations and Changing World Politics, Congress / AMERICA – 2001, p 362
10. Ziya Göyalp, Türkçülüyün Əsasları, Maarif, Bakı, 1991, s 176
11. Е.М.Кузмина, Геополитика Центральной Азии, Наука, Москва, 2007 с 152
12. http://olaylar.az/index.php?newsid=1238414399
13. http://www.voanews.com/azerbaijani/archive/2008-11/2008-11-21-voa12.cfm?moddate=2008-11-21


### Summary

### REGIONAL INTEGRATION PERSPECTIVES OF THE TURKISH STATES WITHIN THE INTERNATIONAL ORGANIZATIONS


***Mahmudov JEYHUN***
*(Qafqaz University)*



By analyzing the theoretical aspects of regional integration, we studied its possibility for the geography of Turkish states and presented projects of international institutes answering the general interests of regional states.